

■ Həmid KƏSƏMƏNLİ

## NÜMUNƏ KİMİ

Azərbaycan, dünyada şərəfli yeri olan,
Varlığın, hünərinlə parlayasan hər zaman.
Alovtək isidirsən, qızdırırsan hər yanı,
Sənintək ürəklisi, geniş qəlblisi hanı?!

Yer altı, yer üstündə sərvətlərin bəsindir,
Mərhəməti sevirsən, hamısı qismətindir.
Var-dövlət başdan aşır, onların qədrini bil,
Onlardan faydalanar gələcək neçə nəsil.

Yerləşdiyin bu məkan əlverişli yerdədir,
Hər tərəfə əl çatır, bax bu da qismətindir.
İqlim qurşağın çoxdur, müxtəliflik törədir,
Hər cür şəraitin var, bunlar ki lap gözəldir.

Dağlar, meşələr, çaylar - hamsı kifayət edər,
Qeyrətli insanların səni daim yüksəldər.
Təbiətin gözəldir, sən onunla yararlan,
Gəlib-gedən çoxalar, daha məşhur olarsan.

Yaradan xoş məqamda bəxş edibdir cahana,
Sənin hər şeyin vardır, diqqətlə bax olana.
İstədiyin tək yaşa, nəyin  varsa faydalan,
Yaradan səninlədir, ONU çıxarma yaddan.

Qürurlan, Yaradanın çox istəyir xətrini,
O, ilhamla yaratmış səni "Nümunə kimi"
Biləsən, O çox sevir sənin  kimi gözəli
Ona görə çəkilməz səndən ONUN gözləri.

## VƏTƏN YAŞAMALIDIR

Söylə, görüm harda var belə dağlar, dərələr,
Təpəsi göyü dələn uca, qarlı zirvələr.
Qayaları dibində şır-şır axar çeşmələr,
Yamacları gül-çiçək, laləli mənzərələr.

Söylə, görüm harda var bura bənzər ölkələr,
Biri-birindən qəşəng, abad kəndlər, şəhərlər.
Qəlbi fərəhlə dolu qurub, yaradan əllər,
Vətəni, xalqı üçün şirin candan keçənlər.

Söylə, görüm harda var bərəkətli zəmilər,
Torpağında yetişər can dərmanı bəhərlər.
Məhsulun bolluğundan insanları sevinər,
Hamısı xoşbəxt yaşar, çoxusu yüzü keçər.

Söylə, görüm harda çox şair təbli insanlar -
Yaşanan xoş günlərə mahnı, nəğmə qoşanlar.
Öz şanlı keçmişindən qürur ilə danışar,
Adət-ənənələri müqəddəstək yaşadar.

Söylə, görüm harda var gələcəyə ümidlər,
Xoş məramlı insanlar, arzuları çin görər,
Möhtəşəmlik qisməti, adı dillərdə gəzər,
Hünərli insanları möcüzələr yaradar.

Vətənim - var-dövlətim, şöhrətim amalımdır,
Mən ondan ayrılmaram, vətən böyük anamdır.
Yüz canım olsa belə vətənimə qurbandır,
Gələcəyin naminə vətən yaşamalıdır!

## VƏTƏN İSTƏR

Vətən müqəddəs varlıqdır, ondan güc, qüvvət alıram,
O, bizlərə nümunədir, oxşamağa çalışıram.
Vətən qürur mənbəyimdir, qüruru ondan alıram,
Əgər ona oxşamasam, tək özümü qınayıram.

Vətən mehribanlıq sevir, düşmənə də güzəşt edir,
Gələcək barışıq üçün öz niyyətini gizlətmir.
Nifrət, qəzəb ziyanlıdır - onlardan zəhləsi gedir,
Vətənin xoş əməlləri baş ucalığı bəxş edir.

Vətən satqınlığı sevmir, satqınları bağışlamır,
Dəyanətli, mərd insanlar onun gözünün ağıdır.
Namussuzluğu xoşlamır, şan-şərəflə qidalanır,
Ən sevimli övladları tarixdən ibrət, dərs alır.

Vətən - müdriklər beşiyi, onun özü də müdrikdir,
Ağılla görülmüş işlər, onu hədsiz sevindirir.
Dahi, müdrik insanlardan heç nəyini əsirgəmir,
Onlara ölməzlik verir, dirilik suyu içirir.

Vətən istər - övladları xoş məramlı böyüsünlər,
Ədaləti, həqiqəti hər şeydən üstün bilsinlər.
Yer üzündə hər canlını, insanlığı çox sevsinlər,
Tolerantlıq göstərməklə dözüm, imana gəlsinlər.

Vətən hamıya doğmadır, onun yaxşı, pisi olmaz,
Kim vətənini sevmirsə namərd olar, xoş yaşamaz.
Vətən dərdi çəkməyəndən heç zaman qəhrəman çıxmaz,
Vətəninə xor baxanın gözlərinin nuru artmaz.

## AYRILIQ GÖRMƏZ

Uzun müddət bundan öncə millətimiz parçalanmış,
Hər insanın ən sevdiyi vətən çox yerə ayrılmış.
Neçə-neçə nəsillərin ürəkləri qubar atmış,
Millət zillət çəkə-çəkə ölməyib, yenə yaşamış.

Millətin bölünməsinə kimlər bais olmuşdular,
Göyə qalxan fəryadları eşitməyib, kar qaldılar.
Millətin yox olmasını ürəkdən arzuladılar,
Niyyətləri boşa çıxdı, ruhlar bizi yaşatdılar.

Millətimin qeyrətinə, dözümünə heyran qaldım,
Vətən uğrunda kim öldü, hər birini igid sandım.
Çox sayda vətən övladı özünə şöhrət qazandı,
Parçalanmış millətimiz təkləndi, amma yaşadı.

Keçmişlərdən indiyədək olan adətlər yaşayır,
Onları yaşadan kəslər millətin fəxri sayılır.
Millət tərəqqi edərək, dünyada ad-san qazanır,
Parçalanmış olsaq belə, ürəklərdə birlik qalır.

## XALQA ARXALAN

Öz xalqını daim sev, ona sədaqətli ol,
Onda xoşbəxt olacaq, gedəcəksən uzun yol.
Xalq adını uca tut, onu hörmətdən salma,
Xalqın gözündən düşüb əbədi unudulma.

Xalq həmişə sayıqdır, onu çaşdırmaq olmaz,
Xalq gözü tərəzidir, xalqı aldatmaq olmaz.
Xalqın gözü açıqdır, onu bağlamaq olmaz,
Xalqın dediyi haqdır, doğrunu danmaq olmaz.

Xalqın gücü böyükdür, sən onunla hesablaş,
Sən adi qum dənəsi, xalq isə qaya, sal daş.
Nə qədər gücün varsa, öz xalqına sərf elə,
Xalq borclu qalmayacaq, qaytaracaq özünə.

Xalq nələri tikirsə, onlar əbədi qalır,
Xalq nələri yaradır - bəşəriyyət zövq alır.
Xalq kimləri sevirsə, aləm onları sevir,
Həmin sevilən kəslər, öz xalqını yüksəldir.

Əgər bir kəs ömrünü öz xalqına həsr etsə,
Həyatda xoşbəxt olub seviləcək həmişə.
Daima xalqla bir ol, onun haqqında düşün,
Əgər lazım gələrsə, öz xalqınla bir sürün.

Xalq yolunda can yandır, fəda olmağa çalış,
Xalq hörmətini qazan, xalq ki deyil yaddaşsız.
Səy göstər, doğma xalqın heç bir bəla görməsin,
İnsanlar sağlam olub qəm-qüssə keçirməsin.

Öz xalqına xidmət et, çalış ona fayda ver,
Ömür kəsilən zaman tapacaqsan rahat yer.
Həmişə  öz xalqının sən aşiqi olasan,
Şam kimi ərisən də xalqdan ayrılmayasan.

Çalış, istənilən vaxt xalq sənə dayaq dursun,
Səni yaşadan ürək xalqınla birgə vursun.
Sən xalqa arxalansan yenilməz güc alarsan,
Hünərini artırıb, uğurlar qazanarsan.